*“Metafizika” Journal* | ***AcademyGate Publishing***
*Vol 8, issue 1, serial 29, 2025. pp.108-126* | *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UDC:** 297.; 37.01.; 371.
**LBC:** 74; 74 P; 74.04(3)
**MJ №** 256
10.33864/2617-751X.2025.v8.i1.108-126

# Ways to Combat Religious Ignorance

**Nijat Yahyazade***

**Abstract.** The stability of every society is closely tied to the proper establishment of its ideological foundations. In this context, religious education is of great importance, especially today, when conflicts are widespread. A lack of religious education and growing ignorance often lead to the rise of religious radicalism and extremism. The ideological, political, economic, and spiritual damage caused by these forms of extremism is profound. Religious ignorance is a key factor contributing to this issue. However, the teachings of our religion, promote peace, mercy, consideration, and moderation. The social organization of religion and establishment of religious institutions make great contributions to promoting religious ideas in a healthy way and allows people to be religiously more educated. Therefore, the Quran, Islamic tradition, and the wisdom of intellectuals emphasize the significance of religious education in numerous instances. The main purpose of writing this article is to partially explore the methods of combating religious ignorance. Although the topic is new, it addresses one of the most important issues of modern times. Based on the conducted research, emphasizing the importance of religious education, organizing secondary and higher religious education, valuing education as a moral virtue, preparing sound religious literature, learning lessons from the harm caused by religious ignorance, and encouraging specialists working in the field of religious education are considered some of the most important and effective methods in the fight against religious ignorance. This article has been studied in a descriptive-analytical manner and based on content analysis. Additionally, it is considered an interdisciplinary study, as it encompasses the subjects of religious education, history, sociology, and the Quran.

**Keywords:** religious ignorance, religious education, methods, combat, illiteracy

---

* Doctor of Philosophy in Theology,
Researcher of "AcademyGate Publishing" (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

**To cite this article:** Yahyazade, N. [2025]. Ways to Combat Religious Ignorance. *“Metafizika” journal, 8*(1), pp.108-126.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.108-126

***Article history:***
*Received: 10.11.2024*
*Accepted: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 297.; 37.01.; 371.
**ББК:** 74; 74 Р; 74.04(3)
**MJ №** 256
10.33864/2617-751X.2025.v8.i1.108-126

# Способы Борьбы с Религиозной Неграмотностью

**Ниджат Яхьязаде***

**Абстракт.** Каждое общество в значительной степени связано с правильным формированием идеологической сферы. Поэтому в период массового распространения конфликтов религиозное образование приобретает огромное значение. Там, где царит религиозная неграмотность и невежество, неизбежны попытки распространения религиозных предрассудков, радикализма и экстремизма. Идеологический, политический, экономический и моральный ущерб, который эти явления наносят обществу, огромен. Одним из ключевых факторов, способствующих созданию такой среды, является религиозная неграмотность. Наша религия призывает людей к миру, безопасности, отказу от жестокости к невинным, милосердию, самопожертвованию и умеренности. Социальная организация религии и создание религиозных институтов вносят значительный вклад в здоровое распространение религиозных идей и обогащение религиозных знаний общества. Именно поэтому в многочисленных аятах Корана, исламских хадисах и рекомендациях ученых подчеркивается ценность религиозного образования. Основная цель написания данной статьи заключается в частичном исследовании методов борьбы с религиозной неграмотностью. Хотя тема является новой, она охватывает одну из самых важных проблем современности. На основании проведенного исследования подчеркивается важность религиозного образования, организация среднего и высшего религиозного обучения, оценка образования как духовной ценности, подготовка достоверной религиозной литературы, а также извлечение уроков из ущерба, нанесенного религиозной неграмотностью, и поощрение специалистов, работающих в области религиозного образования. Всё это считается одними из самых важных и эффективных методов борьбы с религиозной неграмотностью. Настоящая статья исследована в описательно-аналитической форме и на основе анализа содержания. Кроме того, данная статья является междисциплинарным исследованием, поскольку она охватывает темы религиозного образования, истории, социологии и Корана.

**Ключевые слова:** религиозная неграмотность, религиозное образование, методы, борьба, неграмотность

---

* Доктор философии по теологии,
Исследователь в AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

**Цитировать статью:** Яхьязаде, Н. [2025]. Способы Борьбы с Религиозной Неграмотностью. *Журнал «Metafizika», 8(1),* с.108-126.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.108-126

***История статьи:***
*Статья поступила в редакцию:* 10.11.2024
*Отправлена на доработку:* 13.12.2024
*Принята для печати:* 03.03.2025

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*"Metafizika" Journal*
*Vol 8, issue 1, serial 29, 2025. pp.108-126*

*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 297.; 37.01.; 371.
**KBT:** 74; 74 P; 74.04(3)
**MJ №** 256
10.33864/2617-751X.2025.v8.i1.108-126

# Dini Savadsızlıqla Mübarizə Üsulları

**Nicat Yəhyazadə***

**Abstrakt.** Hər bir cəmiyyətin sabitliyi, əsasən idioloji sahənin doğru-düzgün şəkildə formalaşması ilə əlaqədardır. Buna görə də münaqişələrin kütləvi şəkildə rəvac tapdığı bir zamanda, dini cəhətdən savadlanmaq olduqca böyük əhəmiyyət kəsb edir. Dini savadsızlıq və cəhalət olduğu yerdə isə dini xurafatın, dini radikalizmin və ekstremizmin yayılması və artması cəhdləri labüddür. Bu fəsadların cəmiyyətə vurduğu idioloji, siyasi, iqtisadi və mənəvi ziyanlar isə hədsizdir. Belə bir mühitin yaranmasında dini savadsızlıq əsas faktorlardan biridir. Dinimiz isə insanları əmin-amanlığa, sülhə, günahsız insanlara zülm etməkdən çəkinməyə, mərhəmətli olmağa, insanlara qarşı fədərkarlıq göstərməyə və mötədilliyə çağırır. Dinin sosial təşkili və dini institutların yaradılması, dini ideyaların sağlam şəkildə olduğu kimi təbliğ edilməsinə və cəmiyyətin öz dini biliklərini zənginləşdirməsinə böyük töhfələr verir. Məhz buna görə də bir çox Quran ayəsində, İslami hədislərdə və ziyalı insanların tövsiyələrində dini savadlanmağın dəyəri açıqlanmışdır. Bu məqaləni qələmə almaqda əsas məqsəd dini savadsızlıqla mübarizə üsullarını qismən də olsa araşdırmaqdır. Mövzu isə yeni olmaqla yanaşı, müasir dövrdə mövcud olan ən mühüm məsələlərdən birini özündə ehtiva edir. Aparılan tədqiqata əsasən dini savadlanmağın əhəmiyyətini çatdırmaq, dini orta və ali təhsilin təşkili, savadlanmağın mənəvi dəyər kimi qiymətləndirilməsi, sağlam dini ədəbiyyatın hazırlanması, dini savadsızlığın vurduğu ziyanlardan nəticə çıxararaq ibrət alınması və dini savadlanma sahəsi üzrə fəaliyyət göstərən mütəxəssislərin təşviq edilməsi, dini savadsızlıqla mübarizədə ən mühüm və təsirli üsullardan sayılır. Hazırkı məqalə təsviri-analitik qaydada və məzmun analizinə əsasən tədqiq edilmişdir. Həmçinin bu məqalə fənlərarası araşdırma sayılır, çünki din təhsili, tarix, sosiologiya və Quran mövzularını özündə ehtiva edir.

**Açar sözlər:** dini savadsızlıq, din təhsili, üsullar, mübarizə, savadsızlıq

* İlahiyyat üzrə fəlsəfə doktoru,
"AcademyGate Publishing"-in tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

**Məqaləyə istinad:** Yəhyazadə, N. [2025] Dini Savadsızlıqla Mübarizə Üsulları. *"Metafizika" jurnalı, 8*(1), səh.108-126.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.108-126

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.11.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 13.12.2024*
*Çapa qəbul edilmişdir: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İnsan yarandığı gündən ətrafındakı varlıqlar barədə və öz maddi-mənəvi ehtiyaclarını təmin etmək üçün elm və məlumat kəsb etməyə cəhd göstərir. Bu isə insanda artıq fitri bir hiss olaraq formalaşmışdır. Elm insanın inkişaf etməyi və tərəqqi qazanmağı üçün mühüm vasitədir. Hər bir işdə həddi aşmaq və ifrata varmaq bəyənilmir, lakin elm öyrənməkdə özəlliklə ilahi elmlərə yiyələnmək mövzusunda, xüsusi bir hədd təyin edilməmişdir və burada ifratın mənası yoxdur. Quranda oxuyuruq: *“...Ey Rəbbim! Mənim elmimi artır”.* [Taha, 114] Ayədən məlum olduğu kimi insan ömrü boyunca elm və təhsil almalıdır və heç bir zaman məzun olmur. Çünki elmin sonu yoxdur və bəşərin günbəgün ehtiyacları çoxalmaqdadır. Həm də elmi xüsusi ilə də dini elmləri sağlam və mötəbər mənbədən öyrənməlidir. Müsəlman olan kəs hər gün öz elmini artırmalıdır. Din isə insan həyatının ən mühüm hissəsini təşkil edir. Onun barədə məlumatlanmaq və savadlanmaq olduqca zəruri məsələdir. Necəki Peyğəmbərimiz (s) belə buyurardı: *“Məni Allaha yaxınlaşdıracaq elm öyrənmədiyim gün mənim üçün mübarək və bərəkətli deyildir”.* [Təbərsi, 1372 h.ş, 7, 52] Peyğəmbər (s) isə biz müsəlmanlar üçün hər bir sahədə xüsusi ilə də elm öyrənmək və dini savadlanmaq mövzusunda nümunə və ülgüdür: *“Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!”* [Əhzab, 21]

Dini savadsızlıqla mübarizədə və dini təhsilin təşkilində diqqət olunası əsas məsələlərdən biri də, maarifləndirmə prosesinin ənənəvi İslam əsasında aparılmasıdır. Deyə bilərik ki, xalqların dinə yanaşması fərqli ola bilir. Bunun səbəbi və mənşəyi isə, onların etnik cəhətləri, milli adətləri və ictimai həyat tərzləridir. İslam şəriəti bütün insanlar üçün vahid qayda-qanunlar məcmusu olmasına baxmayaraq, o qaydaların real fərdi və ictimai yaşayışda həyata keçirilməsinə münasibət fərqlidir. “*İndiki müsəlman xalqlar, dinə və şəriətə zidd olan adət-ənənələri aradan çıxarıb, zidd olmayanları isə qoruyub saxlayıblar. Bəzi adət-ənənələr isə artıq İslamlaşıb. Xalqlara şəriətə zidd olmayan adət-ənənələrini qoruyub saxlamağa icazə vermək dinimizin humanist prinsipidir... Dini savadsızlığın fəsadlarından biri sayılan dini radikalizm belə, ənənəvi İslamın zəifləməsi, lakin dindarlığın güclənməsi fonunda ciddiləşə bilər*”. [İsmayılov, 2020, 141-149] Deməli dini savadsızlığın aradan qaldırılması və cəmiyyətin dini savadının artırılması, ənənəvi İslam prinsipləri əsasında həyata keçirilməlidir. Əks təqdirdə, dini savadsızlığın təmin edilməsi prosesində, qeyri ənənəvi İslamın kənar təsirləri və mənfi izləri qaçılmazdır.

Məqalədə Quran və İslami hədislər nöqteyi-nəzərdən elm öyrənməyin dəyər və əhəmiyyəti, Azərbaycanda dini təhsilin tarixi və mərhələləri qeyd olunur.

Həmçinin dini savadsızlığın yaratdığı fəsadlar: xurafat, radikalizmin və ekstremizm barədə məlumat verilir. Ən əsası da dini savadsızlıqla mübarizə üsulları o cümlədən dini savadlanmağın əhəmiyyətini çatdırmaq, dini orta və ali təhsilin təşkili, savadlanmağın mənəvi dəyər kimi qiymətləndirilməsi, sağlam dini ədəbiyyatın hazırlanması, dini savadsızlığın vurduğu ziyanlardan nəticə çıxararaq ibrət alınması və dini savadlanma sahəsi üzrə fəaliyyət göstərən mütəxəssislərin təşviq edilməsi bəhs edilir.

**2.Elm və savad öyrənməyin əhəmiyyəti**

Elm hər zaman insan həyatını işıqlandıran bir vasitə olmuşdur. İnsan şəxsiyyətinin fərdi və ictimai nöqteyi-nəzərdən düzgün formalaşmasında elmin əvəzsiz rolu vardır. Xüsusi ilə də dini elmlərin mənimsənilməsi, insan həyatına böyük töhfələr verə bilər. Çünki o elmlər vəhyə bağlıdır və məsum kəlamından qaynaqlanmışdır. Buna görə də Quran ayələri və məsumların hədisləri elmin dəyər və əhəmiyyətini xüsusi şəkildə vurğulamışdır.

**2.1.Quran ayələrində**

Qurani-Kərim Allah tərəfindən insanların doğru yola hidayət olması üçün göndərilmişdir. Buna görə də Quranda insanın hidayətinə lazım olan məsələlər öz əksini tapmışdır. Bunların ən mühümü insana öz həyatında su və hava kimi lazım olan elmə yiyələnmək və savadlanmaqdır. Quranın bir neçə ayəsi bizə elmin dəyərini çatdırır və onun Allah yanında nə qədər əhəmiyyətli olmasını bəyan edir. Ona görə də İslam dini məhz elm və savadlanmağa dəvət ilə öz missiyasını başlayır: *“Yoxdan yaradan Rəbbinin adı ilə oxu!”* [Ələq, 1] Təsadüfü deyil ki, Quranda elm sözü 750 dəfədən çox işlənmişdir. Bir çox ayələr elm əhlinin digərlərindən üstün olmasını çatdırır. Bu isə elm öyrənməyin və savadlanmağın nə qədər əhəmiyyətli olmasını bildirir: *“...De: “Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!”* [Zümər, 9] Ayədə qeyd olunan elm dedikdə İlahi elm nəzərdə tutulur. Çünki İlahi elmdir ki, insanı kamala çatdırır. Onun olmaması isə insana ziyan vurur. Digər elmlər isə yalnız dünyada insana fayda verir. [Təbatəbai, 1390, 17, 243] İnsan digər varlıqlarla müqayisədə daha ali varlıq sayılır. Onun bu məqama nail olması isə məhz elm ilədir: *“Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: “Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!”* [Nəml, 15] Bu ayə elmin nə qədər şərafətli olmasına bir dəlildir. Elm ən gözəl nemətlərdən sayılır. Hər kəsə elm verilərsə, o bir çox insanlardan üstün olar. [Zəməxşəri, 1407, 3, 353]

Elmli və məlumatlı olmaq Allahın nəzərində o qədər dəyərlidir ki, O insanı yer üzündə Öz nümayəndəsi seçərkən, ona yaradılış aləminin bütün sirlərini və əşyaların adlarını öyrətdi. Deməli bəşər övladının birinci müəllimi Allah-taalanın Özüdür: *“Adəmə bütün şeylərin adlarını öyrətdi.”* [Bəqərə, 31] Elm öyrətmək peyğəmbərlərin və ilahi elçilərin də əsas missiyası və hədəfi

olmuşdur: *“Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.*” [Ali-İmran, 164] [Bax: Məmmədov, 2013, II/1578] Qeyd olunan ayələrdən məlum olur ki, Quran insanları elm öyrənməyə xüsusi ilə də dini cəhətdən savadlanmağa dəvət və təşviq edərək, onun insana verdiyi faydaları açıqlayır. Bu isə həqiqətdə dini savadsızlıqla mübarizə aparmaq və onu cəmiyyətdən təcrid etmək üçün ən yaxşı üsuldur.

**2.2.İslami hədislərdə**

Elm öyrənmək və savadlanmaq xüsusi ilə də dini elmlərə yiyələnmək o qədər əhəmiyyət kəsb edir ki, Peyğəmbər (s) və məsum imamlar (ə) bu mövzunu daim diqqət mərkəzində saxlamış və bu barədə İslam ümmətinə öz faydalı məsləhətlərini vermişlər. Peyğəmbərimiz (s) elm öyrənməyin əhəmiyyəti barədə buyurub: *“Ən yaxşı sədəqə bir müsəlmanın elm öyrənməsi sonra onu öz müsəlman qardaşına öyrətməsidir”.* [Məclisi, 1403, 2, 25; İbn Macə, 1418, 1, 228] Yenə buyurmuşdur: *“Elm öyrənmək hər bir müsəlmana vacibdir və hər şey, hətta dənizdəki balıqlar belə, elm öyrənən kəs üçün bağışlanmaq diləyir”.* [Muttəqi Hindi, 1409, 10, 131] Əli (ə) elm öyrənmək barədə belə buyurmuşdur: *“Elm qəlblərin dirilik səbəbidir və həqiqəti görməyən gözlərə nurdur və gücsüz bədənlər üçün qüvvətdir”.* [Tusi, 1414, 488] Hədislərdən göründüyü kimi məsumlar elm öyrənməklə yanaşı onu digərlərinə də öyrətməyi tövsiyə etmiş və bu işə müsəlmanları həvəsləndirmişlər. Habelə elm öyrənməyin insan həyatında olan müstəsna faydalarını açıqlamışlar.

**3.Azərbaycanda dini təhsilin tarixi və mərhələləri**

Azərbaycan xalqı elə qədimdən elmə dəyər vermiş və öz övladlarını dini və dünyəvi elmləri öyrənmək məqsədilə mədrəsə və məktəblərə, hətta müxtəlif ölkələrə göndərmişlər. Bu isə dini savadsızlıqla mübarizənin ən bariz nümunəsi sayılır. “Bir çox müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da din təhsili və dini tədris müəssisələrinin yaranması İslamın bu bölgədə yayıldığı ilkin dövrlərə təsadüf edir. Bu, İslamın elmə və biliyə verdiyi yüksək dəyərlə bağlı idi”. [Məmmədov, 2018, 189] Azərbaycanda dini mədrəsələrin fəaliyyətə başlaması XII-XV əsrlərə təsadüf edir. Azərbaycanda yaranmış ilk mədrəsə olaraq Şamaxının “Məlhəm” mədrəsəsinin adını qeyd etmək olar. XIX əsrin birinci yarısında Azərbaycan Çar Rusiyası tərəfindən işğala məruz qaldıqdan sonra, din təhsilinin yeni mərhələsi başladı. Beləliklə Bakı, Gəncə və Quba kimi şəhərlərdə qəza məktəbləri açıldı. Burada dünyəvi elmlərlə birgə, din və şəriətlə də bağlı elmlər öyrədilirdi. [Bax: Həsənov, 2016, 29] Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, din təhsili yeni bir mərhələyə keçid almışdır. O zaman dinlə bağlı bütün fənlər məktəb

proqramlarından çıxarıldı. Əhali isə bunu birmənalı qarşılamadı və öz övladlarına evlərdə dini təhsil verməyə başladılar. Bu illərdə bir çox din xadimləri və mədrəsə müəllimləri repressiyaya uğradı və bütün bunların nəticəsində ölkəmizdə dini təhsil zəiflədi. Lakin sovet hakimiyyətinin son illərində, Buxara və Səmərqənd kimi şəhərlərdə dini elmlərin tədris olunduğu mərkəzlər yaradıldı. Azərbaycanlılar da dini biliklərə yiyələnmək üçün bu mərkəzlərə üz tuturdular. [Məmmədov, 2018, 112]

Azərbaycan müstəqillik qazandıqdan sonra da, din təhsili sahəsində yeni bir səhifə açıldı. Bu dövrdə Azərbaycanda din təhsili ibtidai, orta və ali səviyyələrdə icra olunur. İbtidai din təhsil, QMİ-tərəfindən hazırlanan Quran kursları və orta məktəblərdə "Həyat bilgisi" kitabı vasitəsi ilə aparılır. Orta dini təhsil isə mədrəsələrdə o cümlədən Şəki İslam Mədrəsəsi (1993), Zaqatala Əliabad İslam Mədrəsəsi (2002) və "Şəbnəm" qızlar mədrəsəsində (2003) həyata keçirilir. [Bax: İsmayılov, 2020, 104-106] 2024-cü ildən Bakı İlahiyyat kolleci də orta dini təhsil müəssisəsi kimi öz fəaliyyətinə başlamışdır. Azərbaycanda ali dini təhsil verən mərkəzlər sırasında Bakı İslam Universiteti (1989) və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsini (1992) qeyd etmək olar. 2018-ci ildə isə yüksəkixtisaslı dini kadrların hazırlanması məqsədi ilə, Azərbaycan İlahiyyat İnstitutu yaradılmışdır. Bu isə Azərbaycanın din tarixində qəbul edilmiş ən ciddi və önəmli qərarlardan biridir. Qeyd edək ki, Azərbaycanda dini təhsilin təmin olunması sahəsində görülən bütün bu işlər, əslində dini savadsızlıqla əsaslı şəkildə mübarizə aparmaq istiqamətində həyata keçirilir.

## 4.Dini savadsızlığın yaratdığı fəsadlar

Hər hansı bir cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə və yüksək səviyyədə insanlara çatdırılmazsa, burada xurafatın yayılması, dini fanatizim və dini radikalizm halları habelə dini ekstermizmin acı nəticələri qaçılmaz olacaq. Azərbaycan cəmiyyətində də, belə xoşagəlməz halların ortaya çıxması dini savadsızlıqla olduqca sıx bağlıdır. Deməli "*Dini təhlükəsizliyin təmin edilməsi baxımından din təhsili böyük əhəmiyyətə malikdir. Din təhsili cəmiyyətdə radikalizm və ekstremizm meyillərinin meydana çıxmasının qarşısını alan əsas qabaqlayıcı tədbirlərdən biridir. Dini zəmində radikallaşma, əsasən, dini savadın olmaması və ya dinin düzgün başa düşülməməsi səbəbindən meydana gəlir*". [Heydərov, 2020, 156] Burada dini savadsızlığın yaratdığı ən başlıca fəsadları nəzərdən keçirək.

Xurafat yaxud mövhumat, məntiqi əsası olmayan, hər hansı əlamətlərin uğur və ya uğursuzluq gətirəcəyinə olan inancdan, adətən qorxudan və psixoloji pozuntulardan yarana bilir. Misal olaraq, on üç rəqəmi Qərb cəmiyyətində və dörd rəqəmi isə Yaponiyada uğursuz hesab olunur. Xurafat elmi izahı olmadan ona inanılan və bu inancın nəticəsində əməl edilən səbəb-

nəticə əlaqəsidir. Xurafat cahillik və inamsızlıq kökləri əsasında iki ehtiyacdan irəli gəlir: təhlükəsizlik və idrak. Dini xurafata isə batil inanc və etiqad deyirlər. Batil ərəbcə səhv, yalan, boş, haqsız, əsassız və puç deməkdir. Dinlər tarixinə nəzər salsaq, hər dövrdə bidət, xurafat və batil inancların bütün cəmiyyətlərin ortaq problemi olduğunu görərik. [Həsənov, 2017, 3-8] Müsəlmanlar arasında isə mövcud olan səhv ünsürlərin bir hissəsi İudaizm və Xristianlıq dinlərindən sızmışdır. Bir sözlə dini xurafat qüsurlu yaxud da anormal dini təbliğatın nəticəsidir. Buraya uşaqların təhsildən uzaqlaşdırılması, erkən nikah, falçılıq kimi cəmiyyətə ciddi ziyan vuran məsələləri qeyd etmək olar.

Dini radikalizm, hər hansı dinin üstünlüyünü, xüsusi imtiyaza malik olduğunu təbliğ edərək, özündən olmayan dini qruplara qarşı dözümsüz münasibət göstərmək, başqalarına qarşı fiziki və ya mənəvi güc tətbiq etmək mənasını daşıyır. Müasir dövrümüzdə, dini radikalizmi yaradan bir çox səbəblər vardır. Onların ən mühümləri, ənənəvi cəmiyyətin zəifləməsi, təhsilin (habelə dini təhsilin) aşağı səviyyədə olması, müstəmləkə siyasəti və beynəlxalq əməkdaşlığın yetərsizliyidir. [Heydərov, 2020, 61]

Dini ekstremizmin tarixi bəşər yaranan günə qayıdır. İlk dini ekstremizmin izləri, Allahın mələklərə Adəmə səcdə etmək üçün əmr verdiyində, İblisin Allaha asilik edərək səcdə etməməsində görsənir. [Bax: Əraf, 11-12] Həmçinin Adəmin oğlu Qabil qardaşı Habilə həsəd bəsləyərək, elə bir ifrat dərəcəyə çatdı ki, sonda öz doğma qardaşını öldürdü. [Bax: Maidə, 27-31] "*Dini ekstremizmi iki növə ayırmaq olar: Əqidə ilə bağlı ekstremizm və əməli işlərlə əlaqədar olan ekstremizm. Əqidə ilə bağlı olan ekstremizmdə, ümumilikdə dini inanc, əqidə və idioloji sahələr üzrə ifrat dərəcəli məxluqata xas sifətlərin Allaha aid edilməsi, kimi fikirlər nəzərdə tutulur. Əməli işlərlə bağlı olan ekstremizm isə, dini fəaliyyət mövzusunda bəzi fiqhi məsələlərdə ifrata varmaqdan ibarətdir*". [Əbdül Ğəffar əl-Şərif, 2009, 17-19] Dini fanatizm isə dini ekstremizmin ideoloji əsaslarından biri sayılır. Belə ki, dini inamın hər hansı tənqidi yanaşmanı istisna edən və dini normalara kor-koranə riayət etmə ilə müşayiət edilən ifrat dərəcəsidir.

**5.Dini savadsızlıqla mübarizə üsulları**

Dini savadsızlığın yaratdığı fəsadları qısaca olsa da nəzərdən keçirdikdən sonra, dini savadsızlıqla mübarizə üsullarını araşdırırıq. "Üsul" hər hansı işdə tətbiq edilən sistem, qayda, tərz, metod, müəyyən mövzuları araşdırmaq üçün istifadə olunan münəzzəm və sistematik bir yol və məqsədə çatdıran bir vasitə mənalarını ifadə edir. [Azərbaycan dilinin izahlı lüğəti, 2006, IV, 442]

**5.1.Dini savadlanmağın əhəmiyyətini çatdırmaq**

Dini sahədə münaqişələrin kütləvi şəkildə yayıldığı dövrdə, dini savadlanmağın və din təhsilinin verilməsi yaxud artırılması olduqca vacib bir məsələdir. Çünki dini savadsızlıq insanları cahilliyə və xurafata aparmaqda

habelə dinə zidd olan işlərin cəmiyyətdə yayılmasında müstəsna rola malikdir. Belə bir vacib məsələni cəmiyyətə aşılamaq və onun bir cəmiyyət üçün nə qədər əhəmiyyət kəsb etdiyini çatdırmaq, dini savadsızlıqla mübarizə aparmağın ən əsas üsullarından sayılır. Həqiqətdə isə dini savadlanmağın əhəmiyyətini cəmiyyətə çatdırmaqla, dini savadsızlıqdan yarana biləcək bir çox ziyanlardan cəmiyyəti sığortalamaq mümkündür. Burada vacib məqamlardan biri də budur ki, "Dini savadlılıq təkcə dini mətnlərin, dini təcrübələrin və inancların başa düşülməsi deyil, eyni zamanda dinlərin daim dəyişən siyasi, sosial və mədəni kontekslərlə necə formalaşdırıldığını anlamaqdır". [Heydərov, 2020, 166]

Bir sözlə dini savadlı şəxs əsas iki məsələni özündə cəmləyir: Birincisi sosial, tarixi və mədəni sahədə yaranmış və dünyada hökm sürən fərqli dini ənənələr, dini mətnlər, inanclar və təcrübələr barədə əsaslı şəkildə anlayış qazanmaq. İkincisi isə sosial və mədəni məfhumların dini cəhətlərini başa düşmək və onları dəqiq şəkildə tədqiq edərək araşdırma aparmaq istetadına sahib olmaq. Bu isə müasir dövrümüzdə sağlam və təhlükəsiz bir cəmiyyətin formalaşmasında lazım olan ən vacib faktorlardan biri sayılır. Çünki bəşəriyyətin gələcək taleyi və sabitliyi əsasən idioloji sahənin doğru şəkildə idarə edilməsindən asılıdır. Məhz buna görə də dini cəhətdən savadlanmaq və dinin insanlar tərəfindən doğru şəkildə öyrənilməsi, bu dəyərlərin sülh zəmanətçisinə çevrilə bilər. "Din cəmiyyət üçün yox, insan üçündür. Hər bir insanın düzgün mənəvi-əxlaqi meyarlar seçə bilməsi, digər insanlarla münasibətdə yüksək mənəvi prinsiplərdən çıxış etməsi sahəsində dinin rolu əvəzsizdir". [Əliyeva, 2018, 71] Deməli dinin sosial təşkili və dini institutların yaradılması, dini ideyaların sağlam şəkildə təbliğ edilməsi və dini kəsimin öz dini biliklərini zənginləşdirməsinə xidmət edir. Dini savadlanmağın əhəmiyyəti doğru-düzgün şəkildə cəmiyyətə çatdırılarsa, sözsüz o öz müsbət təsirlərini həmin cəmiyyətə töhfə verəcəkdir. Lakin həmin müsbət təsirləri işıqlandırmaq və onları cəmiyyətə çatdırmaq, insanlarda dini savadlanmağa qarşı rəğbət yaradacaqdır. Çünki artıq onlar dini savadlanmağın müsbət təsirlərini əyani şəkildə öz fərdi və ictimai həyatlarında müşahidə etmişlər.

## 5.2.Orta və ali dini təhsilin təşkili

Dini təhlükəsizliyin hər tərəfli təmin edilməsi nöqteyi-nəzərdən din təhsili olduqca böyük əhəmiyyət kəsb edir. Din təhsili cəmiyyətdə xoşagəlməz halların yaranmasının və ictimai fəsadların qarşısını alan profilaktik tədbir sayılır. Buna görə də bir çox dünya dövlətlərində, din təhsilinə xüsusi önəm və yer verilir. Azərbaycanda da orta məktəblərdə dinin ayrı fənn kimi tədris edilməsi nəzərdə tutulmasa da, "Həyat bilgisi" fənni çərçivəsində dinlər barədə maarifləndirici məlumatlar verilir. Bu kitab həm ibtidai (1-4-cü sinif), həm də ümumi orta təhsildə (5-9-cu sinif) tədris edilir. Bu fənni tədris etməkdə əsas

məqsəd, şagirdlərin dünya dinləri barədə sistemli şəkildə məlumatlandırılması, dini xurafatın və radikalizm meyillərinin aradan qaldırılması, habelə dini dözümlülüyün inkişaf etdirilməsindən ibarətdir. "*Həyat bilgisi kitabında dinin tərifi, dinin mənşəyi, tanrı, peyğəmbər və müqəddəs kitab anlayışları, dinlərin təsnifat və məqsədi, dünyanın dərk olunması, insan hüquqları və tolerantlıq konteksində din mövzuları yer almışdır*". [Əzizova, 2018, 11-20] Bundan əlavə 2023-cü ildə Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan İlahiyyat Kollecinin yaradılması barədə qərar qəbul edilmişdir. Kollecdə orta dini ixtisaslı kadrların hazırlanması nəzərdə tutulmuşdur.

Dini ali təhsil sahəsində də son illər Azərbaycanda əsaslı işlər görülmüşdür. O cümlədən 2019-2020-ci təhsil illərindən başlayaraq, "Multikultralizmə giriş" fənni tədris planına əlavə edilmişdir. Bu fənn üzrə dünya dinləri haqqında sistematik olaraq maarifləndirilmə işinin aparılması nəzərdə tutulmuşdur. Buna görə də bu istiqamətdə xüsusi bir dərslik hazırlanmışdır. Bütün bunlarla yanaşı, dini təhsilin təşkilində və inkişafında ali dini təhsil mərkəzi olaraq Azərbaycan İlahiyyat İnstitutunun xüsusi yeri vardır. Aİİ Azərbaycan Respublikasının Prezidentinin 9 fevral 2018-ci il tarixli sərəncamı ilə dini fəaliyyətin təşkili üçün yüksəkixtisaslı kadrların hazırlanması üçün yaradılmışdır. İnstitutda təhsil, Dinşünaslıq və İslamşünaslıq ixtisasları üzrə aparılır. Hazırda İnstitutda bir fakültə (İlahiyyat) və üç kafedra (İslamşünaslıq, Dinşünaslıq, Dillər və ictimai fənlər) fəaliyyət göstərir. Burada magistratura və doktorantura təhsili də həyata keçirilir. Bununlada artıq ölkəmizdə ən yüksək səviyyədə ilahiyyatçı alimlər və din xadimlərinin yetişdirilməsi istiqamətində lazımı şərait yaradılmışdır. "*Ali və orta məktəblərdə din təhsilinin əsas məqsədi dini fəlsəfi, sosioloji, fenomenoloji aspektlərdən öyrənməkdir. Dinin fərd və cəmiyyət üçün oynadığı rolların təhlili, o cümlədən dini radikalizm, ekstremizm və mövhumatçılığın aradan qaldırılması, dinlərarası dözümlülük və tolerantlığın möhkəmləndirilməsi din təhsilinin əsas hədəflərini təşkil edir*". [Heydərov, 2020, 164]

Məlum olduğu kimi yüksəkixtisaslı dini kadrların hazırlanması, dini savadsızlıqla mübarizə işində bilavasitə təsir edən ən əsas faktorlardan sayılır. Bu sahədə aparılan işlər olduqca təqdirə layiqdir. Lakin bunlarla kifayətlənmək doğru olmazdı. Çünki zaman keçdikcə insanların fərdi və ictimai həyatında din faktoruna ehtiyac özünü daha çox biruzə verir. Bunu təmin etmək üçün isə dini savadsızlıqla mübarizə zəminində daha çox addımlar atılmalıdır və cəmiyyətin dini cəhətdən savadlanmağı yolunda daha genişmiqyaslı işlər görülərək təhsil prosesində milli-dini dəyərlər elmi-pedaqoji tələblərə uyğun öyrədilməlidir.

**5.3.Dini savadlanmağın mənəvi dəyər kimi qiymətləndirilməsi**

Hər bir cəmiyyətin doğru-düzgün formalaşmasında mənəvi dəyərlər əsas element kimi təsir göstərmək gücünə malikdir. Dəyərlər qarşılıqlı ictimai

münasibətlərin əsas və bünövrəsini təşkil edir. “Mənəvi dəyərlər, insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Mənəvi dəyərlər bir xalqın, toplumun minilliklər, əsrlər boyu formalaşan tarixi keçmişini, mədəniyyətini, adət-ənənələrini, onun milli şüurunu, dilini, dini inanclarını və davranış qaydalarını əhatə edən toplumdur”. [Nəhmədov, 2019, 53] Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Mənəvi dəyərlərimizi həm də gələcəyimizin təməli kimi qiymətləndirməliyik. Deməli gənclərin və yeni nəslin milli-mənəvi ruhda və onlara sadiq qalaraq yetişdirilməsi, ən əsası da onların qorunması böyük önəm daşıyır. Çünki hər xalqın milli-mənəvi dəyərlərinin qorunması və inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin edilməsində müstəsna rol oynayır. [İsmayılov, 2019, 143] Deməli dini savadsızlıqla mübarizədə, mövcud mənəvi dəyərləri qorumaq, onları daha da möhkəmləndirmək vacibdir. Bununla yanaşı dini təhsilin mənəvi dəyər kimi xarakterizə olunması nəticəsində, gənc nəslin dini savad alaraq xurafat və radikalizmdən uzaqlaşmasına zəmin yaranacaqdır. Çünki insan təhsil vasitəsilə insani və mənəvi dəyərləri mənimsəyir, cəmiyyətin necə inkişaf etməsini öyrənir, özünü dərk edir və cəmiyyətə nələrin fayda və nələrin isə ziyan vurduğunu başa düşür.

Quranı Azərbaycan dilinə ilk tərcümə və təfsir edənlərdən olmuş, Məhəmməd Kərim Bakuvi də elm öyrənməyi bütün kişi və qadınlara vacib bilirdi. Elmi insana bütün həlakətlərdən nicat verən və cəhaləti bütün əzablara giriftar edən bir mənəvi dəyər hesab edirdi. [Yəhyazadə, 2023, 56] O, Qurana yazdığı “Kəşfül-Həqayiq an-Nukətil-Ayati vəd-Dəqaiq” təfsirində “Mücadilə” surəsinin 11-ci ayəsində deyir: “Ey insanlar, bu ayənin məzmununu dürüst anlayın, sizi elm öyrənməyə həvəsləndirən bir ayədir... Məşhur ərəb filosofu Əsnaf ibn Qeys belə deyir: “Alimlər millətin tərbiyəçisidir. O izzət ki, elm səbəbinə əldə edilməyib, zillətə düçar olacaqdır. Həqiqətən, böyük şəxslərin kəlamı da böyükdür. Elmin fəziləti haqqında nə gözəl kəlamdır... Bu zamanda alimlərin vəzifəsi Qurani-Şərifin uca ayələrinin məzmununu avam xalqa başa salmaq olmalıdır. Xalq Quranın hikmət və nəsihətlərinə agah olmasa, çətin ki, cəhalətdən xilas ola bilsinlər...” [Bakuvi, 2014, III/436]

Göründüyü kimi savadlanmaq xüsusi ilə də dini zəmində elmli olmaq, həmişə dahi insanlar tərəfindən bir mənəvi dəyər olaraq tövsiyə olunmuşdur. Çünki onlar bu işin əsl mahiyyətini öz fərdi və ictimai həyatlarında dərk etmişlər. Bu gün hər zamankından daha çox dini savadsızlıqla mübarizə aparmağa və dini savadlanmağı mənəvi bir dəyər kimi cəmiyyətə təqdim etməyə ehtiyac var. Beləki “Mənəvi dəyərlərdən uzaqlaşan gənclər, tədricən fərdiyyətçilik, mənfəətpərəstlik, ifrat dərəcədə sərbəstlik, həzbazlıq elementlərindən ibarət həyat tərzini mənimsəməyə başlayırlar”. [Məmmədov,

Həbibov, 2018, 60] Nəticədə isə gənclərdə fədakarlıq, kollektivçilik, məsuliyyətli davranmaq, vicdanlı olmaq və ailə ənənələri kimi bir çox mənəvi dəyərlər zədələnir. Dini savadlanmağı gənc nəslə mənəvi dəyər kimi aşılamaq, onlarda dini təhsilə rəğbətin yaranması ilə yanaşı digər mənəvi dəyərlərin də onlarda formalaşmasını kompleks şəkildə təmin edir. Qərblə Şərqin qovuşduğu nöqtədə yer alan Azərbaycan gənci mənəvi dəyərlərimizi yaşatmalı, bu işdə ziyalı və yaşlı nəsli özlərinə nümunə götürməlidirlər.

**5.4.Kadr və mütəxəssislərin təşviq edilməsi**

İnsan həyatın hər bir sahəsində təşviq olunmağı həmişə sevir. İş mühitində, ailədə, məktəbdə və digər ictimai fəaliyyət göstərdiyi yerlərdə digərlərindən diqqət gözləyir. Dini sahədə də görülmüş işlərin qarşılığında qədirbilənlik nümayiş etdirmək üçün təşviqat və həvəsləndirmə məqsədilə müəyyən addımlar atmaq olduqca müsbət təsir göstərir. Yəni həmin yaxşı işin davamlı şəkildə təkrarlanmasına səbəb olur. Necəki, Nəsrəddin Tusinin fikrincə təlim-tərbiyənin əsasını və təməlini təşkil edən amil təşviq və həvəsləndirmədir. [Behişti, 1386, 2, 115] Bertran Rassel isə cəmiyyətin inkişafına mane ola biləcək yeganə faktorun, təşviq və həvəsləndirməyə olan paxıllıq və eqoistlikdə görür. [Rassel, 164] İnsanların dini cəhətdən savadlanmasında əməyi və xidməti olan kəslərin, habelə dini sahədə kadr hazırlayan mütəxəssislərin əməyi və zəhməti inkarolunmazdır. Belə şəxslərin göstərdiyi xidmətlərin dəyərləndirilməsi onlarda bu sahədə daha ciddi əzmkarlığın yaranması üçün münbit bir zəmin yaradır. Bu üsula Quranın bir çox ayələrində də rast gəlmək olar. *"(Onların vaxtlı-vaxtında, lazımınca ibadət etmələri, Allahdan qorxub pislikdən çəkinmələri ona görədir ki) Allah onlara etdikləri əməllərin ən gözəl mükafatını (yaxud gördükləri ən yaxşı işlərin əvəzini) versin, onlara olan lütfünü artırsın. Allah dilədiyinə saysız-hesabsız ruzi verər."* [Nur, 38] *"(Allah) iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını büsbütün verəcək, üstəlik Öz nemətindən onlar üçün (bir qədər) artıracaqdır..."* [Nisa, 173] *"Göylərdə və yerdə nə varsa, (hamısı) Allahındır. O, pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandıracaqdır!"* [Nəcm, 31]) Peyğəmbər (s) də həmişə ləyaqətli və yaxşı işlər görən şəxsləri, o cümlədən Afrikada 12 il əzab-əziyyətlə İslam dinini təbliğ edən Cəfər Tayyarı və on doqquz yaşlı Üsaməni təşviq etmişdir. [Qiraəti, 2012, 135] Həzrət Əli (ə) də öz səhabəsi Malik Əştərə bu üslubu xatırladaraq belə buyurmuşdur: *"Ey Malik! Yaxşı əməl sahibi ilə pis əməl sahibi sənin yanında eyni olmasınlar. Bu, yaxşı əməl sahibinin yaxşı işlərə rəğbətini azaldar və pis əməl sahibini pisliklərə daha da vadar edər".* [Nəhcül-Bəlağə, 1379, 53-cü məktub]

Təşviqat işləri isə iki müstəvidə, yəni söz və əməli şəkildə aparıla bilər. Adətən sözlə olan təşviqatların təsiri əməl ilə həyata keçirilən həvəsləndirmə

vasitələrindən daha az qalıcı olur. Buna görə də əməli təşviqatların kəmiyyət və keyfiyyət baxımdan daha çox olması məqsədəuyğundur. [Yəhyazadə, 2021, 158] Buna misal olaraq təşəkkürnamə və təltifnamələrin verilməsi, dini savadlanma sahəsində yazılmış elmi əsərlərlə əlaqədar təqdimatların keçirilməsi və mütəxəssislərə daha artıq məsuliyyətlərin bir vəzifə olaraq tapşırılmasını qeyd etmək olar. Dini savadsızlıqla mübarizədə bu üsulun həyata keçirilməsində müəyyən məqamlar nəzərə alınmalıdır:

- Təşviqat işində, qarşı tərəfin özü ilə bərabər gördüyü iş daha çox təqdirə layiq görülməlidir. Bu isə həmin yaxşı işi davamlı şəkildə yerinə yetirməyə onda həvəs yaradır.
- Görülən yaxşı işlə təşviq prosesi arasında çox fasilə yaranmamalıdır. Əks təqdirdə təşviq öz müsbət təsirini itirəcəkdir.
- Təşviq, hədəf və məqsədə çevrilməməli və yaxşı işin davamlı olması üçün onu bir vasitə kimi dəyərləndirmək lazımdır.
- Təşviq, görülən yaxşı işə münasib və ona layiq olmalıdır.

Dini savadlanmada təsirli olan bu metodun nəticə və faydası isə, bu müqəddəs və insani işi həyata keçirən kadr və mütəxəssislərin daha yüksək əhval-ruhiyyə qazanmaları, intellekt və istedadlarının artması, onlarda bu işə daha artıq marağın yaranması və daha çox səy göstərmələrinə səbəb olacaqdır. Nəticədə cəmiyyətdə daha geniş miqyaslı dini savadlanma həyata keçirilərcədir. Bu isə dini savadsızlıqla mübarizədə ən təsirli üslub ola bilər.

**5.5.Sağlam dini ədəbiyyatın hazırlanması, kitabxanaların dini ədəbiyyatla təmin olunması və dini mövzularda elmi müsabiqələrin keçirilməsi**

Dini ədəbiyyat sahəsində xarici ədəbiyyatın milli müəlliflərimizin ortaya qoyacağı əsərlərlə əvəz edilməsi dövlətin din sahəsində idioloji işinin əsas prioritetlərindən birinə çevrilir. Bu isə öz növbəsində daha bir sahədə dini kadrlara ehtiyacı üzə çıxarır. [İsmayılov, 2020, 263] Bütün bunlar milli-mənəvi dəyərlərimizə cavab verən səviyyəli və sağlam dini ədəbiyyatın yazılmasında, din sahəsində ictimai fikrin düzgün formalaşmasında, həm də dini kontingentin idarə olunmasında əvəzsiz təsirə malikdir. Buna görə də dini cəhətdən savadlanmaq istəyən hər bir kəs, daha çox yerli dini mütəxəssislərin qələmə aldığı və onların fikirlərinin məhsulu olan dini ədəbiyyatı seçməlidirlər. Çünki bəzi hallarda tərcümə olunmuş dini ədəbiyyatlarda, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə zidd olan məqamlara rast gəlinir. Bunun üçün təşviqat məqsədilə yerli dini mütəxəssislərin əsərlərinə dövlət və cəmiyyət tərəfindən daha çox dəyər verilməlidir. Bundan əlavə hazırkı dövrdə dini maariflənmə və savadlanma işində hansı mövzularda və hansı səviyyədə ədəbiyyatın yazılması yaxud tərcümə olunması olduqca mühüm məsələ sayılır. Ona görə də dini kitabların istər təlif edilməsinə istərsə də tərcüməsinə, nəzarət

edə biləcək elmi şura yaradılmalı və bu sahədə görülməli işlər mərkəzləşdirilərək bir yerdən idarə olunmalıdır.

Qeyd edək ki, Dini qrumlarla iş üzrə dövlət komitəsinin tabeliyində fəaliyyət göstərən, Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən inidiyə qədər yerli dini mütəxəssislərin hazırladığı yüzlərlə dini ədəbiyyat işıq üzü görmüşdür. Bu isə dini savadsızlıqla mübarizə işində atılan mühüm addımlardan biri sayılır. Lakin gənclərin sağlam və milli-mənəvi ruhda yetişdirilməsi, xüsusi ilə ailə mövzuları ilə bağlı dini ədəbiyyatın hazırlanması olduqca vacib məsələdir. Çünki bu mövzular 2024-cü ildə baş tutan prezident seçkilərindən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində də Prezident tərəfindən xüsusi şəkildə vurğulanmışdır. Amma təəssüflər olsun ki, bu sahədə hələ də boşluq hiss olunur.

Dini savadasızlıqla mübarizədə əsas faktor kimi respublika üzrə olan kitabxanaların da sağlam dini ədəbiyyatla təmin edilməsi mühüm rol oynayır. Çünki bir çox hallarda rayon yaxud şəhərlərdə olan mərkəzi kitabxanalarda oxucuların dini mövzularda ədəbiyyata olan tələbləri və ehtiyacları lazımı şəkildə qarşılanmır. Düzdür yaşadığımız dövrdə bir çox kitabların elektron versiyası mövcuddur, lakin bu, əsla kitabın yerini vermir. Həm də kitab oxumaq mədəniyyətini cəmiyyətdə nəyin bahasına olursa olsun qoruyub saxlamaq və gələcək nəsillərə bir irs olaraq çatdırmaq olduqca vacib məsələdir.

Bütün bunlarla yanaşı, dini mövzularda müntəzəm olaraq elmi müsabiqələrin keçirilməsi və qalibləri təşviq etmək məqsədilə onların mükafatlandırılması da dini savadsızlıqla mübarizənin bir hissəsini təşkil edə bilər. Necə ki, Qurani-Kərim bizləri bu işə dəvət edir: *“...Elə isə yaxşı işlər görməkdə bir-birinizlə yarışın!”* [Maidə, 48]

### 5.6.Dini savadsızlığın vurduğu ziyanlardan nəticə çıxararaq ibrət almaq

İnsanların cəmiyyətdə gördüyü hər bir yaxşı və ya pis işin özünə məxsus müsbət və mənfi nəticələri olur. Məhz buna görə insan cəmiyyətin bir üzvü kimi, öz rəftar və davranışlarına daim nəzarət etməli və onun hansı nəticəni verəcəyini düşünməlidir. Savadsızlıq xüsusi ilə də dini savadsızlıq və cəhalət olduğu yerdə dini xurafatın, dini radikalizmin və ekstremizmin yayılması qaçılmazdır. Sadalanan fəsadların cəmiyyətə vurduğu idioloji, siyasi, iqtisadi, mənəvi və.s ziyanlar saysız-hesabsızdır. “Dini radikalizmin fəaliyyət sahəsi təkcə ideologiya ilə məhdudlaşmır, özünü sosial-siyasi fəaliyyətdə də biruzə verir. Elə isə cəmiyyətdə dini sabitlik mühitinin formalaşdırılması sosial-siyasi və ideoloji təhlükəsizliyin təmin edilməsini şərtləndirir.” [Heydərov, 2020, 174] Bunların arxasında isə insanların inancını və düşüncəsini istismar edərək böyük gücə çevriləcək qüvvələr dayanır. Belə bir mühitin yaranmasında dini savadsızlıq mühüm faktorlardan biri sayılır. Təəssüflər olsun ki, dövrümüzdə bəzi cəmiyyətlər getdikcə elm və təhsildən uzaqlaşırlar. Nəticədə isə dinin

təməl prinsipləri zəifləyərək tədricən cəmiyyətdən təcrid olunur. Dini təhsilin lazımı səviyyədə həyata keçirilməməsi və bu sahə üzrə təhsil almış kadrlara doğru şəkildə istiqamət verilməməsi, insanların dini düzgün dərk etməməyinə səbəb olur. Bütün bunlardan ibrət alaraq gələcək nəslin milli-mənəvi ruhiyyədə yetişdirilməsi üçün, doğru-düzgün qərar çıxartmaq və yaranmış vəziyyəti yaxşıya doğru dəyişməkdir. Bunun üçün dini savadsızlığın vurduğu fəsadlardan ibrət almalı və bu yolda lazımı addımlar atılmalıdır.

Quran ayələri də insanları keçmiş hadisələrdən ibrət alaraq nəticə çıxartmağa dəvət edir. *“Ey ağıl və bəsirət sahibləri! (Bəni Nəzir qəbiləsinin başına gələnlərdən) ibrət alın!”* [Həşr, 2] İnsanın fərdi və ictimai həyatı ibrətlərlə doludur. Lakin ayədən də göründüyü kimi öz ağlını işlədən və haqqı görmək istəyən kəslər baş vermiş hadisələrdən ibrət alırlar. *“(Ey Müsəlmanlar!) Sizdən əvvəl bir çox vaqilər (ibrətli əhvalatlar) olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!”* [Ali-İmran, 137] Həzrət Əli (ə) bu barədə belə buyurub: *“Mən keçmişdə yaşayanlar qədər ömür sürməsəm də, onların əməllərinə elə nəzər salmışam ki, mənə ibrət olub”.* [İbn Əbil-Hədid, 1404, 16, 67]

Dinimiz insanları əmin-amanlığa, sülhə, günahsız insanlara zülm etməməyə və mötədilliyə dəvət edir. Məhz buna görə də İslamın dözümsüzlük, terror, məzhəbçilik, xurafat, cəhalət, radikalizm və fanatizmdən nə qədər uzaq bir məktəb olması hamıya gün kimi aydındır. Qeyd edilən bu təhlükəli meyllərin isə ölkəmizə ayaq açmaması və cəmiyyətimizi onların ziyanından sığortalamaq üçün, İslam dininin doğru şəkildə və olduğu kimi öyrənilməsi və insanlara çatdırılması olduqca mühüm məsələdir. Bu isə gələcək nəslin sağlam ənənəvi İslam prinsipləri əsasında yetişdirilməsində müstəsna rola malikdir.

**6.Nəticə**

Aparılan tədqiqatın hasili olaraq aşağıdakı nəticələri qeyd etmək olar:

**6.1.**Elm öyrənmək və təhsil almaq insan həyatının ayrılmaz bir parçasıdır. İnsanın müxtəlif sahələrdə inkişaf edərək tərəqqi etməsi üçün savadlanmaq ən vacib faktordur. Din isə insan həyatının fərdi və ictimai sahəsini əhatə edən qaydalar toplusudur. Onları öyrənmək insanın doğru-düzgün həyat qurmasına xidmət göstərəcəkdir. Nəticədə sağlam və mənəvi dəyərləri özündə əks etdirən bir cəmiyyət formalaşacaqdır. İslam dini də məhz buna görə elm öyrənməyin, xüsusi ilə də dini zəmində savadlanmağın əhəmiyyətini vurğulamışdır.

**6.2.**Azərbaycan xalqı da hər zaman din təhsilinə böyük dəyər verərək yeni nəslin dini cəhətdən savadlanması istiqamətində lazımı addımlar atmışdır. Azərbaycanda elə qədim dövrlərdən bu günə qədər müxtəlif din tədrisi müəssisələri və mərkəzləri fəaliyyət göstərmiş və hazırda göstərməkdədir. Nəticə etibarı ilə bu fəaliyyətlər İslam mədəniyyətinə, din təhsilinə və dini

maarifləndirmə işinə böyük töhfələr vermişdir. Bu isə dini savadsızlıqla mübarizədə əsas metodlardan biri kimi dəyərləndirilir.

**6.3.**Cəmiyyətdə dini və ideoloji təhlükəsizliyin hər tərəfli təmin olunması istiqamətində, dini təhsilin nə qədər müsbət təsirə malik olması üzə çıxır. Belə məlum olur ki, dini savadsızlıq xurafat, dini fanatizim, dini radikalizm habelə dini ekstermizmlə nəticələnir. Bütün bunlar isə dini savadın olmaması yaxud dini tam başa düşməmək nəticəsində ortaya çıxır.

**6.4.**Dini savadsızlıqla mübarizədə tətbiq olunan üsullardan biri, dini savadlanmağın insan həyatı üçün nə qədər əhəmiyyət kəsb etməsini cəmiyyətə çatdırmaqdır. Bunu isə mütəmadi olaraq müxtəlif maarifləndirici tədbirlərin keçirilməsi və müəyyən konfransların təşkil edilməsi ilə həyata keçirmək mümkündür. Digər cəhətdən yeni nəslin dini orta və ali təhsil ilə təmin olunması dini savadsızlıqla mübarizədə ən mühüm və təsirli metodlardan biri sayılır. Mənəvi dəyərlərin qorunması istiqamətində din təhsilinin mənəvi dəyər kimi qiymətləmdirilməsi dini savadsızlıqla mübarizəyə təkan verə biləcək üsullardandır. Çünki dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Dini savadlanma sahəsi üzrə fəaliyyət göstərən kadr və mütəxəssislərin təşviq edilməsi isə, onlarda bu işə daha çox həvəs və məsuliyyət yaradacaqdır. Bunun nəticəsi isə dini savadsızlıqla mübarizə işinin genişlənməsi və dini maarifləndirmə işinin əsaslı şəkildə həyata keçirilməsidir. Təcrübələrə əsasən sağlam dini ədəbiyyatın hazırlanması, dini mövzularda müntəzəm olaraq elmi müsabiqələrin keçirilməsi və kitabxanaların sağlam dini ədəbiyyatla təmin edilməsi dini savadsızlıqla mübarizə işində müstəsna rol oynayan üsullardandır. Dini savadsızlığın insan cəmiyyətinə vurduğu bir çox ziyanlardan nəticə çıxartmaq və ibrət almaq, insanlarda xüsusi ilə gənc nəsildə dini savadlanmağa doğru istək yaradır. Çünki insan öz təhlükəsizliyini təmin etməyi və sağlam bir cəmiyyətdə yaşamağı sevir.

## ƏDƏBİYYAT

1. *Qurani-Kərim.* (2016). Bakı, Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev.
2. Bakuvi, M. K. (2014). *Kəşfül-Həqayiq an-Nukətil-Ayati vəd-Dəqaiq* təfsiri (Vol. 3). Bakı: Şərq-Qərb nəşriyyatı.
3. Behişti, M. (1386 h.ş). *Müsəlman alimlərinin təlim-tərbiyə və onun əsasları barədəki fikirləri* (Vol. 2). Qum: Hövzə və universitet nəşriyyatı.
4. Əbdül Ğəffar əl-Şərif, M. (2009). *Dini ekstremizm onun səbəbləri və aradan qaldırılması yolları*. Bakı: İdrak ictimai birliyi, 57 s.
5. Əlauddin Hindi, & Əli Muttəqi ibn Hisamuddin (1409 h.q). *Kənzul-ummal* (Vol. 16). Beyrut: Ər-Risalə müəssəsi nəşriyyatı.

**6.** Əliyeva, Y. (2018). *İnformasiya təhlükəsizliyi və din*. Bakı: Tuna nəşriyyatı.
**7.** Əzizova, E. (2018). Azərbaycanın orta ümumtəhsil məktəblərinin "Həyat bilgisi" dərsliklərində dinə baxış: Kvantitativ və kvalitativ təhlil. *Din araşdırmaları jurnalı, 1,* 7-29.
**8.** Heydərov, S. (2020). *Din və ideoloji təhlükəsizlik*. Bakı: Tuna nəşriyyatı.
**9.** Həsənov, A., Namazov, G., Abdulov, Ə., & Vəlizadə, T. (2017). *Dini radikalizm və xurafat: Bir medalın iki üzü*. Bakı: Şans nəşriyyatı, 119 s.
**10.** Həsənov, S. S. (2016). *Din təhsili və dini təhsil müəssisələri*. Bakı: Elm və təhsil.
**11.** İbn Əbil-Hədid, Ə. H. (1404). *Nəhcül-bəlağənin şərhi* (Vol. 10). Qum: Mərəşi Nəcəfi kitabxanası nəşriyyatı.
**12.** İbn Macə, M. Y. (1418). *Sünən* (Vol. 6). Beyrut: Darul-cil nəşriyyatı.
**13.** İsmayılov, G. (2019). *Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz*. Bakı: Tuna nəşriyyatı, 240 s.
**14.** İsmayılov, G. (2020). *Azərbaycanda dini məsələ: Təhdidlər və hədəflər*. Bakı: Tuna nəşriyyatı, 282 s.
**15.** Qiraəti, M. (2012). *Təbliğ üsulları Quran və həsilərdə*. Bakı: Zərdabi nəşriyyatı, 223 s.
**16.** Məclisi, M. B. (1403 h.q). *Biharul-ənvar* (Vol. 110). Beyrut: Əl-Vəfa müəssisəsi nəşriyyatı.
**17.** Məhəmməd ibn Həsən Tusi. (1414 h.q). *Əl-Əmali*. (1 vol.) Qum: Darus-səqafə nəşriyyatı.
**18.** Məmmədov, C. (2018). Azərbaycanda din təhsili. *Din araşdırmaları jurnalı, 1*(1), 189-197
**19.** Məmmədov, C. (2018). *Azərbaycanda dövlət-din münasibətləri: Tarix və müasirlik*. Bakı: Tuna nəşriyyatı, 124 s.
**20.** Məmmədov, E. (2013). *Fehrist (Quran ayələrinin mövzular üzrə təsnifatı)* (Vol. 3). Bakı.
**21.** Məmmədov, E., & Həbibov, A. (2018). *Mənəvi dəyərlərimiz*. Bakı: Tuna nəşriyyatı, 161 s.
**22.** Nəhmədov, A. (2019). *Qloballaşma və mənəvi dəyərlər*. Bakı: "Mənəvi dəyərlərin təbliği fondu" nəşriyyatı, 105 s.
**23.** Orucov, Ə. (2006). *Azərbaycan dilinin izahlı lüğəti* (Vol. 4). Bakı: Şərq-Qərb nəşriyyatı.
**24.** Rassel, B. (n.d.). *Tərbiyə barədə* (Vol. 1).
**25.** Rəzi, M. H. (1379 h.ş). *Nəhcül-Bəlağə* (Feyzul-islam İsfahani, Trans., Vol.1). Tehran: Feyz nəşriyyatı.
**26.** Təbatəbai, M. H. (1417 h.q). *Əl-Mizan təfsiri* (Vol. 20). Qum: İntişarate islami cameye muderrisin hozeye elmiyye nəşriyyatı.

**27.** Təbərsi, F. H. (1372 h.ş). *Məcməul-bəyan fi təfsiril-Quran* (Vol. 10). Tehran: Nasir Xosrov nəşriyyatı.
**28.** Yəhyazadə, N. (2021). *Quranda qadın-kişi münasibətlərinə aid tərbiyə üsulları* (Doktorluq dissertasiyası), 289 s.
**29.** Yəhyazadə, N. (2023). “Kəşfül-Həqayiq”də mənəvi dəyər olaraq vəhdət, elm, yaxşılığa dəvət və pislikdən çəkindirmə. *Din araşdırmaları jurnalı*.
**30.** Zəməxşəri, M. Ö. (1407 h.q). *Əl-Kəşşaf ən həqaiqi ğəvamizit-tənzil və uyunil-əqavili fi vucuhit-təvil təfsiri* (Vol. 4). Beyrut: Darul-kutubil-ərəbi nəşriyyatı.

## REFERENCES

1. *The Holy Quran*. (2016). Baku. Translated into Azerbaijani by Ziya Bünyadov and Vasim Məmmədəliyev. (In Azerbaijani)
2. Bakuvi, M. K. (2014). *Commentary on “Kashf al-Haqa’iq” on the Points of Verses and Delicate Meanings* (Vol. 3). Baku: Sharq-Qarb Publishing. (In Azerbaijani)
3. Behishti, M. (1386 SH/2007 AD). *Muslim Scholars’ Thoughts on Education and Its Principles* (Vol. 2). Qom: Seminary and University Publishing. (In Persian)
4. Abdul Ghaffar al-Sharif, M. (2009). *Religious Extremism: Its Causes and Ways to Eliminate It*. Baku: Idrak Public Union, 57 pages. (In Azerbaijani)
5. Alauddin Hindi, & Ali Muttaqi ibn Hisamuddin (1409 AH/1989 AD). *Kanz al-Ummal* (Vol. 16). Beirut: Al-Risala Foundation Publishing. (In Arabic)
6. Aliyeva, Y. (2018). *Information Security and Religion*. Baku: Tuna Publishing. (In Azerbaijani)
7. Azizova, E. (2018). Perspective on Religion in Azerbaijan’s General Education “Life Science” Textbooks: Quantitative and Qualitative Analysis. *Journal of Religious Studies, 1*, 7–29. (In Azerbaijani)
8. Heydarov, S. (2020). *Religion and Ideological Security*. Baku: Tuna Publishing. (In Azerbaijani)
9. Hasanov, A., Namazov, G., Abdulov, A., & Valizadeh, T. (2017). *Religious Radicalism and Superstition: Two Sides of the Same Coin*. Baku: Shans Publishing, 119 pages. (In Azerbaijani)
10. Hasanov, S. S. (2016). *Religious Education and Religious Educational Institutions*. Baku: Science and Education Publishing. (In Azerbaijani)
11. Ibn Abi al-Hadid, A. H. (1404 AH/1984 AD). *Commentary on Nahj al-Balaghah* (Vol. 10). Qom: Marashi Najafi Library Publishing. (In Persian)
12. Ibn Majah, M. Y. (1418 AH/1998 AD). *Sunan* (Vol. 6). Beirut: Dar al-Jil Publishing. (In Arabic)

**13.** Ismayilov, G. (2019). *Tolerance: What We Know and What We Don't Know*. Baku: Tuna Publishing, 240 pages. (In Azerbaijani)
**14.** Ismayilov, G. (2020). *The Religious Issue in Azerbaijan: Threats and Goals*. Baku: Tuna Publishing, 282 pages. (In Azerbaijani)
**15.** Qiraati, M. (2012). *Methods of Propagation in the Quran and Hadiths*. Baku: Zardabi Publishing, 223 pages. (In Azerbaijani)
**16.** Majlisi, M. B. (1403 AH/1983 AD). *Bihar al-Anwar* (Vol. 110). Beirut: Al-Wafa Foundation Publishing. (In Arabic)
**17.** Muhammad ibn Hasan Tusi. (1414 AH/1994 AD). *Al-Amali* (1 vol.). Qom: Dar al-Thaqafa Publishing. (In Arabic)
**18.** Mammadov, C. (2018). Religious Education in Azerbaijan. *Journal of Religious Studies, 1*(1), 189–197. (In Azerbaijani)
**19.** Mammadov, C. (2018). *State-Religion Relations in Azerbaijan: History and Modernity*. Baku: Tuna Publishing, 124 pages. (In Azerbaijani)
**20.** Mammadov, E. (2013). *Fehrist (Classification of Quranic Verses by Topic)* (Vol. 3). Baku. (In Azerbaijani)
**21.** Mammadov, E., & Habibov, A. (2018). *Our Moral Values*. Baku: Tuna Publishing, 161 pages. (In Azerbaijani)
**22.** Nahmedov, A. (2019). *Globalization and Moral Values*. Baku: "Fund for the Promotion of Moral Values" Publishing, 105 pages. (In Azerbaijani)
**23.** Orucov, A. (2006). *Explanatory Dictionary of the Azerbaijani Language* (Vol. 4). Baku: Sharq-Qarb Publishing. (In Azerbaijani)
**24.** Russell, B. (n.d.). *On Education* (Vol. 1). (In Azerbaijani)
**25.** Razi, M. H. (1379 SH/2000 AD). *Nahj al-Balaghah* (Feyzul-Islam Isfahani, Trans., Vol. 1). Tehran: Feyz Publishing. (In Persian)
**26.** Tabatabai, M. H. (1417 AH/1997 AD). *Tafsir al-Mizan* (Vol. 20). Qom: Islamic Publishing Society of Qom Religious Teachers. (In Persian)
**27.** Tabarsi, F. H. (1372 AH/1993 AD). *Majma' al-Bayan fi Tafsir al-Quran* (Vol. 10). Tehran: Nasir Khosrow Publishing. (In Arabic)
**28.** Yahyazadeh, N. (2021). *Educational Methods in Quranic Male-Female Relationships* (Doctoral Dissertation), 289 pages. (In Azerbaijani)
**29.** Yahyazadeh, N. (2023). Unity, Knowledge, Advocacy for Goodness, and Prevention of Evil as Spiritual Values in "Kashf al-Haqa'iq". *Journal of Religious Studies.* (In Azerbaijani)
**30.** Zamakhshari, M. O. (1407 AH/1987 AD). *Al-Kashshaf: Commentary on Quranic Realities and Interpretative Opinions* (Vol. 4). Beirut: Dar al-Kutub al-Arabi Publishing. (In Azerbaijani)